**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 234 nömrəli qərarı ilə təsdiq edilmiş "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"nda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanının 5.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 234 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 8, maddə 1032; 2014, 1, maddə 69; 2016, 2 (II kitab), maddə 361, 11, maddə 1951; 2017, 7, maddə 1486) ilə təsdiq edilmiş "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3.1-ci yarımbənddə "Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət Enerji Nəzarəti İdarəsi" sözləri "Enerji Məsələlərini Tənzimləmə Agentliyi" sözləri ilə əvəz edilsin.

2. Həmin Qaydalara 1 nömrəli əlavə - "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün Texniki Şərtlər"in mətnində "Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət Enerji Nəzarət İdarəsinə" sözləri "Enerji Məsələlərini Tənzimləmə Agentliyinə" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 30 aprel 2018-ci il
189